# *Ficili nazir:* "İqlim maliyyələşdirilməsi mexanizmləri aydın və ədalətli olmalıdır"



**Fici və digər Sakit okean adaları dünyada iqlim dəyişikliyinə az təsir edir. Amma bu ölkələr iqlim dəyişikliyinin mənfi nəticələrindən ən çox əziyyət çəkənlərdir.**

Bu fikirləri COP29-da iştirak edən Fici Respublikasının ictimai işlər, nəqliyyat və meteoroloji xidmətlər naziri Filipe Tuisavau deyib. O, iqlim dəyişikliyi ilə mübarizə və kiçik ada dövlətlərinin (SIDS) dəstəklənməsi kimi vacib məsələlərə toxunub. Nazir iqlim maliyyələşdirilməsi mexanizmlərinin aydın və ədalətli olmasının vacibliyini qeyd edərək, bu sahədə irəliləyişlərin əldə edilməsinin zəruriliyini vurğulayıb.

Filipe Tuisavau maliyyə mexanizmlərinin, xüsusən uyğunlaşma, azaldılma və zərər-təminat mövzularında daha konkret addımların atılmasının zəruri olduğunu deyib. Nazir kiçik ada dövlətlərinin borc yükünü artırmadan iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərini həyata keçirmək üçün qrant əsaslı maliyyələşmənin artırılmasını vacib hesab etdiklərini qeyd edib.

Nazir həmçinin Sakit okean adalarının iqlim dəyişikliyinə həssaslığı ilə bağlı elmi məlumatların beynəlxalq hesabatlarda tam əks olunmasının əhəmiyyətinə diqqət çəkib. Xüsusilə dəniz səviyyəsinin yüksəlməsi, okeanların turşulaşması və ekstremal hava hadisələrinin təsirləri ilə bağlı məsələlərin gələcək İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel (IPCC) hesabatlarında prioritet mövzular arasında yer almasının vacib olduğunu bildirib.

COP29-un təşkilatçılığından da danışan nazir Azərbaycanın qonaqpərvərliyini və tədbirin effektiv təşkilini təqdir edib.

Azərbaycan.- 2024.- 21 noyabr (№ 256).- S.14.